Həmid İmanov

# FƏLSƏFƏNİN ƏSASLARI

*Dərs vəsaiti BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurası tərəfindən təsdiq edilmişdir*

TURAN EVİ

Bakı - 2007

101(07)
140

Az
I-48

Elmi Redaktor
*Fəlsəfə elmləri doktoru, professor* **İzzət Rüstəmov**

Rəyçilər
*Fəlsəfə elmləri doktoru, professor* ***Zeynəddin Hacıyev***
*Fəlsəfə elmləri doktoru, professor* ***Əbülhəsən Abbasov***
*Fəlsəfə elmləri doktoru, professor* ***Əziz Məmmədov***

**İ-48 İmanov Həmid Rza oğlu.** *BDU-nun Humanitar fakültələr üzrə Fəlsəfə kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor.* Fəlsəfənin əsasları. Bakı, "Turan evi" - 2007

Çoxminillik tarixə malik olan fəlsəfəyə, fəlsəfi təfəkkürə son zamanlar maraq və diqqətin zəifləməsi təəssüf doğurur. Heç şübhəsiz bunun səbəblərindən biri də "Fəlsəfə" kursunun və ümumiyyətlə fəlsəfənin təbliğatının hələ də lazımi səviyyədə təşkil olunmamasıdır. Dövr dəyişib, fəlsəfi təfəkkürə münasibət də təkamülə uğrayıb.

Müəllif bunları nəzərə alaraq dərs vəsaiti üzərində işləyərkən mövcud boşluğu qismən də olsa doldurmağa çalışmışdır.

Təqdim olunan dərs vəsaiti ali təhsilin bakalavr pilləsi üçün nəzərdə tutulmuşdur. Bundan əvvəl müəllifin nəşr etdirdiyi "Fəlsəfə" adlı dərs vəsaiti yenidən işlənmiş, dərsliyə yeni bölmələr əlavə edilmiş, metodiki cəhətdən daha da təkmilləşdirilmişdir. Dərslikdə XX əsr qərb fəlsəfəsinin əsas cərəyanları şərhinə geniş yer verilmişdir. Dərs vəsaiti üzərində işləyərkən müəllifin özünün çoxillik təcrübəsi ilə yanaşı, həm ölkəmizdə, həm də xaricdə çap olunmuş materiallardan və fəlsəfi biliyin son yeniliklərindən istifadə etmişdir.

"Fəlsəfənin əsasları" adlı dərs vəsaiti oxucunu dünya haqqında, insan və onun fəaliyyətinin müxtəlif sahələri haqqında fəlsəfi fikirlərlə tanış edir.

İ $\frac{0301020000}{113\text{-}2007}$ Sifarişlə

© İmanov H.R., 2007

# I BÖLMƏ

## FƏLSƏFƏ VƏ MƏDƏNİYYƏT SİSTEMİNDƏ ONUN YERİ

Fəlsəfədən olan əksər dərsliklər «filo» və «sofiya» söz birləşmələrinin açıqlanmasıyla başlanır. Rus dilində filosofiya «müdrikliyi sevmək», Azərbaycan dilində isə «hikməti sevmək» kimi işlədillir. Fəlsəfə müxtəlif dillərdə necə səslənməsindən asılı olmayaraq ta qədimdən müdriklik təlimi, filosof isə müdrik insan kimi mənalandırılmışdır.

Müdriklik nədir? Bu sual fəlsəfənin tarixi qədər qədimdir. Hər bir dövrdə, fəlsəfənin ümumdünya tarixi mərhələlərində müdrikliyin müxtəlif şərhləri olmuşdur. Müasir dövrümüzdə müdriklik gündəlik həyatda insanın konkret situasiyalarda keçmiş təcrübəyə əsaslanaraq müəyyən səmtə istiqamət qəbul etməsi kimi başa düşülür və şərh olunur. Lakin müdrikliyin belə başa düşülməsi çox məhduddur. Əlbəttə, bu bir həqiqətdir ki, müdriklik adi şüur səviyyəsində və insanın həyat fəaliyyətində özünü biruzə verir ki, bu da fəlsəfi düşüncələrin mənbələrindən birini təşkil edir.

Fəlsəfi müdriklik gerçəkliyin rasional dərki ilə yanaşı, filosofun varlığın bütün səpkiləri, bütövlükdə varlığa baxışlar üzərində refleksiyasını ehtiva edir. Bu refleksiya fəlsəfəni, eləcə də insan mədəniyyətini humanizm mahiyyəti ilə doldurur. Müdriklik mütləq idrakla, varlığın rasional dərki ilə eyniyyət təşkil etmir. Müdriklik insanın dünyanı dərk etməsində rasional olmayan intuisiya və təxəyyülə də əsaslanır. Fəlsəfi müdrikliyə dərin məzmun da refleksiyaya xasdır. Bu refleksiya dünyanın, onun qanunauyğunluqlarının dərindən dərkinə, varlıq və onda insanın yeri haqqında düşüncələrə əsaslanır. Fəlsəfi refleksiya varlığın və təfəkkürün, bütövlükdə insan mədəniyyətinin hüdudlarını dərk etmək və başadüşməyə əsaslanır.

Müdriklik insanın onu əhatə edən varlıq, özü-özünün üzərində refleksiyasının xüsusi formasıdır. Bu refleksiya dünyanın mənəvi-ruhi mənimsənilməsinin ancaq «fikri-diskursiv» *(anlayış*

*və kateqoriyalar vasitəsilə)* usullarına deyil, həm də dünyanın bilavasitə intuitiv dərk edilə bilən (obrazlar və simvollarla) üsullarına əsaslanır. Bu refleksiyanın məqsədi dünyanın vəhdətini, insanın dünya ilə qarşılıqlı əlaqəsinin, münasibətinin praktiki tərəfini əks etdirməkdir və insana həyat fəaliyyəti üçün bütöv hormonik dünyagörüşü proqramı verir.

Müdriklik həmişə «xeyirxahlıq ilə həqiqətin» «sevgi ilə düzgünlüyün», «haqq ilə faydanın» «əql ilə əxlaqın» vəhdətinin kamillik kimi qavranılmasıdır. Ümumi şəkildə desək, fəlsəfə insan və dünyanı, dünyada isə insanı öyrənir. Aydındır ki, dünya, onun konkret struktur səviyyələri və sferaları olduqca müxtəlif elmlər tərəfindən öyrənilir. Bu elmlərin predmetini gerçəkliyin müəyyən, konkret kəsiyi təşkil edir. Fəlsəfə isə gerçəkliyi bütövlükdə və vəhdətdə öyrənməyə cəhd edir. Fəlsəfi bilik üçün səciyyəvi cəhət budur ki, o, gerçəklikdə mövcud olan hadisə və proseslərin müxtəlifliyinə baxmayaraq onlar arasında daxili vəhdəti öyrənir. Fəlsəfə təfəkkürün ən qədim və daim yeniləşən forması olmaqla, dünyagörüşünün nəzəri cəhətdən inkişaf etmiş və məntiqi cəhətdən nizama salınmış növü və səviyyəsidir.

V.S.Solovyov *(rus mütəfəkkiri)* yazırdı: «Fəlsəfənin hədəfi mövcudatın hər hansı bir tərəfi deyil, bütün mövcudatdır, öz məzmunu və mənası ilə bütün Kainatdır. O təkcə dünyanın hissələri və hissəciklərinin dəqiq həddini və onların arasında qarşılıqlı təsiri müəyyən etmir, onların daxili əlaqələrini və vəhdətini anlamağa cəhd edir».

A.Q.Spirkin «Fəlsəfə» dərsliyində fəlsəfə ilə konkret elmlərin nisbətini şərh edərək öz mövqeyini belə bildirmişdir: «Fəlsəfə elmdir – konkret elm gerçəkliyin empirik və nəzəri dərk edilməsi üçün müəyyən anlayışlardan, mühakimələrdən, prinsiplərdən, qanunlardan, hipotezlərdən və nəzəriyyələrdən çıxış edir. Hər bir elmin - istər təbiətşünaslıq, istərsə də humanitar elmlər olsun öz predmeti vardır. Bütün bunlar inkişaf prosesində dəyişər, yanlış nəzəriyyələrin əvəzində daha mükəmməl nəzəriyyələr yarana bilər. Fəlsəfədə də başqa elmlərdə olduğu kimi insanlar səhv edə, yanlış hipotezlər irəli sürə bilərlər. Lakin bunlar heç də o demək deyildir ki, fəlsəfə digər elmlərin sırasında duran elmdir. Fəlsəfənin predmeti başqadır. Fəlsəfə ən ümumi haqqında elmdir. Bu ən ümumi ilə heç bir konkret elm xüsusi olaraq məşğul olmur».

Fəlsəfi anlayışlar, kateqoriyalar, prinsiplər, qanunlar və nəzəriyyələr başqa elmlərdə olduğu kimi fəlsəfədə də inkişaf edir, dəqiqləşdirilir. Bir sözlə, fəlsəfə azad və universal bəşəri bilik sahəsidir. Nəticədə bunu da demək istərdik ki, fəlsəfi mənası olmayan, fəlsəfi məzmun daşımayan hər hansı bir elm sahəsi və ya incəsənət ancaq cılız və sönükdür.

Fəlsəfi təfəkkürdən kənarda bilik sahəsi, daha doğrusu məlumat sahəsi olan hər bir fənn hansısa elmə xidmət və yardım edə bilər, ancaq özü elm ola bilməz. Bir daha qeyd edək ki, fəlsəfəsiz, fəlsəfi duyumsuz elm və elmi biliklər mümkün deyildir.

Fəlsəfə elə bir bilik sahəsidir ki, hər bir insan istər-istəməz onunla qarşılaşmalı olur. O özündə müəyyən təfəkkür tərzini və təfəkkür məntiqini birləşdirir; düşünən insan özü üçün onları aşkarlandırır. Buna görə də fəlsəfə ilə ancaq o adam qarşılaşmır ki, o ümumiyyətlə, özünün, digərlərinin, onu əhatə edənlərin, həm yaxınlarının, həm də uzaqdakıların nə etdikləri haqqında düşünmür. Necə deyərlər, əgər bu və ya digər təfəkkür tərzini mənimsəyə bilmisənsə, deməli, müəyyən bir fəlsəfəni mənimsəmiş olursan.

Bu dediklərimiz, xüsusilə gənclərə aiddir. Belə ki, gənclərə dumansız, buludsuz bir nikbinlik xasdır. Əlbəttə, bu çox önəmlidir. Bununla yanaşı, bu nikbinlikdə bir düşüncəsizlik də vardır. Bax bu düşüncəsizlik həyatda kövrək, möhkəm olmayan dayaqdır. Çox hallarda ilk uğursuzluq gənci sarsıdır, dünən nikbin olduğu halda, bu gün bədbinlik ona hakim kəsilir. Artıq bu gənci heç nə sevindirmir, heç nə şadlandırmır. Ayağının altına baxmayıb bütün küləklərə və sevinclərə qarşı «uçur». Yəqin ki, bir zədə də alır. Əslində bəlkə də təbii olaraq bir rahatlıq almaq fikrində olmuşdur. Əvəzində isə zədələnmişdir. Beləliklə, əvvəllər ruhunu oxşayan qızıl güllər içərisindəki tikanları görməmişdir, çünki bunlar yarpaqların altında gizlənibmiş. Artıq bu tikanlar onun nəzərindən qızıl gülün özünü kənarlaşdırır. Qızıl gülün özü «əqldən kasadlar» üçün aldadıcıya çevrilir.

Nikbinlik düşüncəsi ilə aşılanmadıqda insan qızıl güllə etdiyi rəftarı edə bilər. Bu halda gənclikdə fəlsəfə tikana çevrilir. Burada söhbət ondan getməlidir ki, gəncliyi tez-tələsik fəlsəfəyə

cəlbmi edək, onu bütün işləri kənara qoyub, fəlsəfə ilə məşğul olmaq üçün «diləmi tutmaq»? Əlbəttə yox. Heç bir sübuta ehtiyac yoxdur ki, real həyat özünün bütün zənginlikləri və təzadları, sevinc və iztirab doğuran məqamları ilə hər bir fəlsəfi nəzəriyyə üçün əvəzsiz qiymətli mənbədir, məxəzdir.

Fəlsəfə real həyatın təbii axarında özünə mövqe tutmağa qadirdir. Fəlsəfə insan zəkası üçün böyük mənəvi tələbatdır. İnsan əqlini, zəkasını məşğul etməyə yönəldilmiş, düşünməyə, fikirləşməyə, gördüklərini anlayıb təhlil etməyə istiqamətlənmiş tələbat daim mövcuddur. Əql şübhəsiz ki, bir zinət deyildir, o bir gigiyenadır. Ruhi sağlamlıq gigiyenası isə həyat üçün fiziki sağlamlıq qədər zəruridir. Ruhi sağlamlığa malik olmadan müasir dövrümüzün informasiya seli qarşısında tab gətirmək mümkün deyildir. Bunu da nəzərə almaq lazımdır ki, bu informasiya seli heç də həmişə keyfiyyətli «qida» gətirmir. Beləliklə, ruhi sağlamlığın qayğısına qalmaq hər bir insan üçün həyati əhəmiyyəti olan sosial mahiyyət daşıyır.

Əlbəttə, hər bir kəs elə fəlsəfəsiz də bilir ki, əqlli olmaq, əqilsizlikdən yaxşıdır. Bununla belə, heç də hamı, hətta təhsilli adam belə həmişə başa duşmur ki, əql, fikirləşmək bacarığı, dəyərli düşünmək qabiliyyəti anadangəlmə və ya təbiətin ona verdiyi hədiyyə deyil, o bacarığı hər bir insan özündə tərbiyə etməlidir.

Avtoritar rejimdən demokratiyaya keçiddə həyati əhəmiyyətli məsələlərin həllində açıq müzakirələrin, müxtəlif rəylərin toqquşması, bir-birini qarşılıqlı rədd etməsi bir zərurətdir.

Fəlsəfə məhz bu halda son dərəcə gərəkli olur. Onun vasitəsilə həqiqəti dərk etməyə, onu qərarlaşdırmağa yollar açılır. Demokratik dialoqlar, rəylərin açıq olması və alternativ mövqelərdə qruplaşması elə bir sosial atmosfer yaradır ki, orada həqiqi nəzəri təfəkkür yaranır ki, buna da çox doğru olaraq fəlsəfə deyilir.

Fəlsəfi təfəkkür, düşüncə ilə insan özünün hərəkətlərinə kənardan baxıb, onları tənqidi müşahidə edib, nəticə çıxara bilir.

Böyük yunan filosofu məhkəmədə öz ideyaları barədə demişdir ki, fəlsəfə ilə ona görə məşğul oluram ki, «həyatı təhlil etmədən, həyatı anlamadan yaşamağa dəyməz». Bu ifadədə Sokratın belə bir ideyası öz əksini tapmışdır ki, onun müasirlərin-

dən çoxu öz həyatlarını, ömrünü şöhrətə, vara-dövlətə və s. həsr edənlər, özlərindən soruşmur ki, bunlar lazımdırmı? İnsan bu sualı vermirsə, onu yaxşı anlamırsa, o etdiklərinin gərəkliyinə, düzgünlüyünə əmin ola bilməz. Deməli, onun həyatı, bütün ömrü faydasızdır, bədəni də öldürücü işə sərf olunur. İndinin özündə insanların bir qismi «həyatı anlamadan yaşayaraq» qarşıya çıxan problemlərdən yan keçməyə meyllidir. Bu halda insanın köməyinə fəlsəfə gəlir, insanı problemin həllinə yönəldir.

Hər bir dövrdə ixtiyari baxışları qəbul etməyə hazır olan insanlar və bu baxışların bəzilərinin qəbul edilməsindən narahat olanlar da olur.

Fəlsəfə nə vaxt və harada, hansı regionda yaranıb? Bu suala alman filosofu K.Yaspers (1883-1969) çox sərrast cavab vermişdir. Onun rəyincə, eramızdan əvvəl 500 ilə yaxın (800-200 ilə qədər) bir müddət ümumdünya tarixində nadir bir dövr olub. Bu dövrü o, «zaman oxu» adlandırır. «Bu zaman daxilində müstəsna olan çoxlu hadisələr baş vermişdir. O vaxt Çində Konfutsi və Lao-Tzı yaşamış və Çin fəlsəfəsi yaranmışdır. Hindistanda Upanişatlar təşəkkül tapmış, Budda yaşamışdır. İranda və Yaxın Şərqdə Zərduşt xeyir və şərin mübarizəsi ilə gedən dünyanı öyrənmiş, fələstində peyğəmbərlər bir-birini əvəz etmişdir».

Bu dövr Yunanıstanda Homerin, filosoflardan Parmenidin, Heraklidin, Platonun və b. dövrüdür. Bu dediklərimiz bir neçə yüz illik ərzində bir-birindən asılı olmayaraq Çində, Hindistanda, Yaxın Şərqdə və Qərbi Avropada eyni vaxtda yaranmışdır. Məhz həmin dövrdə fəlsəfənin bu gün də işlətdiyimiz kateqoriyaları yaranmış, dünya dinlərinin əsasları qoyulmuşdur. Məhz bu dövrdə insan özünün varlığını bütövlükdə başa düşür. Bu dəyişikliklər gələcək inkişaf üçün böyük əhəmiyyət kəsb etdi. «Həmin dövrdə tarixdə kəskin dönüş oldu. Elə insan tipi meydana gəldi ki, o, bu gün də qalmaqdadır».

Avropada antik dövrdə, yəni eramızdan əvvəl VII-VI əsrlərdə artıq fəlsəfə varlıq və onun dərk edilməsi haqqında təlim olaraq formalaşır. Beləliklə, fəlsəfə insan fəaliyyətinin xüsusi bir peşə növünə çevrilir. Öz ömür və yaradıcılıqlarını fəlsəfəyə həsr edən bu peşənin sahibləri üçün fəlsəfənin meydana gəlməsi nə isə

göydəndüşmə qeyri-adi bir şey deyildir. Hər bir insan demək olar ki, öz qəlbində haradasa azad olsa, filosofdur. Əsas mənbə budur. Kant (1724-1804) fəlsəfəni insan ruhunun, canının təbii meyli adlandırmışdır. Yəni az-çox düşünən, mədəni adam belə bir sual üzərində düşünür və ona cavab axtarır: «Niyə mən yaşayıram, nəyə görə yaşayıram? Öz hərəkətlərimdə, davranışlarımda və qətiyyətimdə tam azadammı? Fiziki ölümümdən sonra mənim «Mənimin» taleyi necə olacaqdır?». Bax bunlar hamısı fəlsəfənin suallarıdır. Bu suallar konkret elmlərin sualları deyildir. Bunlar insanın mahiyyətini və təbiətini öyrənməyə yönəlmişdir.

Burada deməliyik ki, qoyulan bu suallara fəlsəfənin verdiyi cavablar tarixən dəyişkən olub, deyərdik ki, daha çox konkret olub. Hər bir dövrün sosial-tarixi praktikası həmin dövrdə maddi və mənəvi-ruhi istehsalın, ətraf mühit haqqında elmi biliklərin səviyyəsindən asılı olur. Buna müvafiq olaraq insan həyatının mənası, prinsipləri və tarixi fəaliyyəti haqqında yeni məsələlər irəli sürür və cavablar axtarır. Konkret elmi təmsil edən alim Nə? Necə? Niyə? suallarına cavab axtarır. Filosof bir qədər başqa suallar qoyur: Nə üçün? Nəyə görə? Nəyin naminə? Hansı yuksək dəyərlər və ideallar naminə?

Fəlsəfə dünyanı vəhdətdə, bütövlükdə əhatə etməklə çox geniş suallar qoyur. Məsələn, dünyanın mahiyyəti nədən ibarətdir? Onun ilk mənbələri haradandır? Nə üçün insan mövcuddur, cəmiyyət tarixinin mənası nədir? İnsanların birgə yaşayışının əsasında nə durur? Nəhayət, insan həyatının mənası nədən ibarətdir?

Həyatın mənası məsələsini hər bir insan özü üçün həll etməlidir. Əgər elmi həqiqət ümumi xarakterə malikdirsə, fəlsəfi həqiqət özündə müəyyən dəyərləri və əxlaqi imperativləri, hökmləri ehtiva edir.

Fəlsəfə özündə iki başlanğıcı birləşdirir. İngilis filosofu B.Rasselə görə, fəlsəfə din ilə elm arasında «sahibsiz olan yerdir», elmlə onu yaxınlaşdıran biliklərin həqiqiliyini sübut etməyə çalışmasıdır. Din ilə onu yaxınlaşdıran təcrübənin adi başa düşülməsinin hüdudlarından kənara çıxmaqdır.

Fəlsəfə özündə insanın dünyanı öyrənməsinin iki əsas üsulunu birləşdirir. Bunlar elmi-nəzəri və praktiki, mənəvi-ruhi üsul-

lardan ibarətdir. Birinci üsul obyektin insanın məqsəd və mənafeyindən asılı olmayaraq necə varsa, eləcə də dərk edilməsidir. İkinci üsul isə gerçəkliyin bəşəri dəyərlər və qiymətlər baxımından mənimsənilməsidir. Bu sintez fəlsəfənin təkrar olunmayan, nadir xüsusiyyətidir.

İnsanın ruhi aləmində fəlsəfi baxışlar əqidə ilə çuğlaşır.

Fəlsəfi baxışlar hazır biliklərin cəmi, məcmusu deyildir, onlar sadəcə olaraq kitablardan, mühazirələrdən götürülməyib, həqiqəti müstəqil axtarmaq, bağışlanılmaz səhvlər, yanılmalar, peşmançılıqla dolu olan şəxsi insan həyatında formalaşır. Daha yetkin təcrübə, daha artıq inkişaf etmiş ictimai-tarixi praktika sayəsində səhv, eyni zamanda birtərəfli abstrakt fəlsəfi ideyalar və nəzəriyyələr öz yerini daha məzmunlu sistemlərə və təlimlərə verir.

Əvvəldə dedik ki, fəlsəfə insan ruhunun tələbatıdır. Bu tələbat rasional əsaslarda ruhun özünün ümuməhatəli və vəhdəti tələbatıdır. Fəlsəfə bu tələbatın ifadəsidir.

İnsan bütün dünyanı tam halda düşünüb təsəvvürə gətirməyə və onun hissələri, çalarları arasında qarşılıqlı əlaqə və təsiri rasional ifadə etməyə cəhd edir. Bu tələbat haradan yaranır? Bunun əsas səbəbi dünya haqqında təsəvvürlərdə birlik, vəhdət olmadıqda insanın daxili aləmində, ruhi dünyasında da vəhdət olmamasıdır. Beləliklə, də gerçəkliyin ayrı-ayrı tərəfləri haqqında pərakəndə, dağınıq biliklərə sahib olmaqla kifayətlənsək, sözsüz ki, ruhi dünyamızın da pərakəndəliyi ilə barışmalı olarıq.

Ruhi həyat vəhdət tələb edir. Əks halda o ruhi halların xaosuna, burulğanına çevrilə bilər. Ruhi aləmin vəhdəti düşünülmədən də yarana bilər. Lakin bu vəhdəti rasional düşünülmüş halda da axtarmaq olar. İntuisiyanın aşkarladıqlarına zəkanın işığını salmaq fəlsəfənin vəzifəsidir. Fəlsəfə ruhi həyatın vəhdətinin rasionallaşması yolunda axtarışlar aparılan yerdə olur.

İnsan seçdiyi fəaliyyət növünü uğurlu həyata keçirmək üçün öz şəxsiyyətini rasional nizamlamalı, qaydaya salmalıdır.

Beləliklə, fəlsəfə dərin ruhi, mənəvi tələbatdan, insanın qayğı və həyəcanından yaranır. Fəlsəfə bəşəriyyətin özünüdərk şüurudur. Əlbəttə, fəlsəfə həmişə cəmiyyətin sosial və mədəni mühiti və onun səviyyəsi ilə bağlı olmuşdur. Fəlsəfə mənəvi-ruhi

istehsalın forması kimi cəmiyyətin özünü yeniləşdirməsinin bir amilidir.

Konkret elm sahələrinin inkişafı və yüksəlişi belə bir sual qarşıya qoyur ki, ümumiyyətlə, fəlsəfə elmdirmi və ya onun elmə münasibəti necədir? Bu münasibətlə müxtəlif mülahizələr mövcuddur. Fenomenologiya fəlsəfəsinin nümayəndəsi Alman filosofu E.Husserl (1859-1938) yazırdı ki, «İnsan mədəniyyətinin mənafeyi elmi fəlsəfənin yaradılmasını tələb edir. Bunun üçün fəlsəfəni elmə çevirməyə kömək edən xüsusi metodlar da araşdırılmışdır».

Digər bir mülahizə bundan ibarətdir ki, fəlsəfə elm deyildir və elm də ola bilməz. O elmdən və mədəniyyətin digər formalarından prinsipial fərqlənir. İspan filosofu X.Orteqa-i-Qasset demişdir: «Bəli, fəlsəfə elm deyildir. O, elmdən artıqdır». Bu o deməkdir ki, filosof elmin nailiyyətləri ilə tanış olmalıdır və həm də onları ümumiləşdirməlidir. Bununla da o ayrı-ayrı xüsusi elmlərin verə bilmədiyi yeni bilikləri verir.

Elm ilə fəlsəfənin yaxınlığı onların metodlarındakı ümumilikdə özünü göstərir. Həm elmin, həm fəlsəfənin idrak metodu rasional formadır. Lakin fəlsəfənin nüfuz etmədiyi, elmə məxsus olan metodlar da vardır. Elmlərdə geniş yayılan eksperiment metodu fəlsəfədə işləmir. Fəlsəfə ilə elmin əməkdaşlığı «fəlsəfə və elmin metodologiyası» adlanan fəlsəfi bilikdə özünü daha artıq biruzə verir.

Fəlsəfə elmi nailiyyətləri ümumiləşdirir və onlara əsaslanır. Fəlsəfənin elmə ehtiyacı olduğu kimi, elm də öz qarşısına qoyduğu problemlərin həllində fəlsəfəyə çox ehtiyaclı olur. Bu münasibətlə A.Eynşteynin bu sözlərini xatırlayaq: «Bizim indiki zəmanəmizdə fizik fəlsəfə ilə məşğul olmağa keçmiş nəsil fiziklərindən daha çox məcburdur. Fizikləri buna məcbur edən onların özlərinin elmlərinin çətinlikləridir».

Hegel (1770-1831) fəlsəfəni «fikirlərdə ifadə olunmuş epoxa» adlandırmışdır. Bu o deməkdir ki, fəlsəfə dövrün, zamanın zərif və intim telləri ilə dərin əlaqədədir. O özündə xalqların əhvalını, marağını, həyat tərzini, psixologiyasını, əxlaqını, məişətini əks etdirir. Dövrün fəlsəfəsi insan, bəşər ruhunun əldə etdiyi nailiyyətlərin ən yüksək səviyyəsini təcəssümləşdirir. Bununla

belə, fəlsəfə əbədilik haqqında düşüncədir. Fəlsəfi təfəkkür insanı yüksək məqsədlər, simvollar və dəyərlər dünyasına aparır.

Fəlsəfi bilik ən ümumi haqqında bilikdir. Belə bilik mümkündürmü? Bu sual nədən irəli gəlir? Bizim bütün biliklərimiz təcrübədən yaranır. Təcrübə özlüyündə ancaq təklər və təsadüflər haqqında məlumatı təsdiqləyə bilər.

Bəşəriyyətin tarixi (fikir tarixi, xüsusilə də ruhun tarixi) gerçəkliyin ən yüksək, ən çox inkişaf etmiş, ən mürəkkəb səviyyəsidir. Fəlsəfə üçün insan həmişə «hər şeyin ölçüsü, meyarı olmuşdur». Fəlsəfə bəşəriyyət tarixində baş verən dərin prosesləri dərk etməklə, ruhi həyatda və şüurlarda baş verən radikal dönüşləri düşünərək, ən ümumiləri dərk etmişdir. Belə ki, dünya inkişafının ali təzahürlərində ən ümuminin potensialı obyektivləşmiş, gerçəkliyə çevrilmişdir.

Demokratik, sivil cəmiyyətdə fəlsəfə hər bir insanın həyat, düşüncə tərzinin mərkəzində get-gedə özünə yer tapacaqdır. Bu cəmiyyətdə fəlsəfə sosial gerçəkliyin, insan varlığının bütün ruhi sferalarının inkişafının zəruri şərtinə çevriləcəkdir.

Nəticə olaraq fəlsəfə nəyi öyrənir sualını versək, ilk növbədə onun predmetinin əsas sahələrini müəyyənləşdirməliyik. Bunlar ontologiya *(varlıq haqqında təlim)*, qnoseologiya *(idrak haqqında təlim)*, insan, nəhayət, cəmiyyətdən ibarətdir.

Fəlsəfənin bu əsas sahələrinin öyrəndiyi xüsusi məsələlər, bölmələr mövcuddur. Bunlar aşağıdakılardan ibarətdir: varlığın mahiyyəti; materiya və onun formaları (substansiya); şüur, onun mənşəyi və təbiəti; insan, onun mahiyyəti və təbiəti; insanın canı və ruhu; cəmiyyət; cəmiyyət və insan; təbiət; təbiət və cəmiyyət; cəmiyyətin sferaları; cəmiyyətin və insanın gələcəyi; idrakın xüsusiyyətləri; idrakın hüdudluluğu və hüdudsuzluğu; hərəkət; fəlsəfi kateqoriyalar; dialektika və onun qanunları və b. məsələlər.

Fəlsəfi dünyagörüşünün ilk əsasları insanın biliyi, inamı haqqında düşünməyə vadar edir. Fəlsəfə insanı özünün təxəyyüllərinin və hərəkətlərinin motivlərini düşünməyə, ideallarının və ideyalarının vacibliyini anlamağa sövq edir. İnsanın zəngin əqidəsinin heç olmasa düşüncəli olmasına inam yaradır.

Fəlsəfə bizim hamımız üçün ya bilavasitə, ya da dolayısı ilə əhəmiyyəti olan problemlərlə məşğul olur. Kainat və insan

dünyası haqqında malik olduğumuz məlumatların və inamların mötəbərliyini tənqidi təhlil etməyə xidmət edir. Bunun nəticəsində bizim nəyi bildiyimiz, nə barədə düşündüklərimiz haqqında sistemləşdirilmiş mükəmməl durumlu ümumi təsəvvürlər hazırlanır, hasil olur. Elmlərin köməyilə dünya haqqında nə qədər çox biliyə nail olunursa, bir o qədər təsəvvürlərimizin, baxışlarımızın yeni şərhinə ehtiyac yaranır.

Bizim hər birimiz Kainat və insan dünyası haqqında geniş informasiya kütləsini qəbul edirik. Lakin heç də hamımız bu məlumatların nə dərəcədə möhtəbər və mühüm olması barədə düşünmürük. Fəlsəfə aldığımız məlumatları tənqidi təhlildən keçirməklə bu inamların, məlumatların, baxışların mötəbər əsaslara malik olub-olmamasını, düşünən insanın bunları qəbul edib-etməməsini müəyyən edir.

Bəşəriyyət insanların fəaliyyətləri və onların qiymətləndirilməsi haqqında biliklərsiz yaşaya bilməz.

«Əgər xüsusi elmlər öz inkişafında get-gedə bilavasitə (gündəlik) təcrübədən uzaqlaşırsa, fəlsəfə həmişə bu təcrübə ilə, deməli, onun doğurduğu məsələlər ilə sıx bağlıdır» (Oyzerman T.İ., K vaprosu ob istokax i spesifike filosofskix problem. Vaprosı filosofii. 1969. № 6 s. 117).

Adi şüur səviyyəsində belə konkret adamın praktik fəaliyyətini geniş mənada tənzim edən dünyagörüşü və idraki məqsədləri «qol-qanad» açır. Şüurun bu səviyyədə fəlsəfi ideyaların onun bütün qatlarına nüfuz etməsinin dərəcəsi müəyyən bir fəlsəfi sistemin digərinə münasibəti ilə müəyyənləşir. K.Marksın dediyi kimi, bu nüfuzetmə dünyanın fəlsəfəsi olur... Mədəniyyətin canlı ruhunu təşkil edir.

Fəlsəfənin predmetinin müəyyənləşdirilməsində İ.Kantın maraqlı fikri vardır. Kanta görə, həqiqi fəlsəfə, məktəblərdə tədris olunan fəlsəfədən fərqli olaraq, insan zəkasının son məqsədi haqqında elmdir. Bu elm digər bilik sahələrinə ən yüksək dəyər gətirir, onların insan üçün əhəmiyyətini, eləcə də insanın dünyada dəyərini aşkarlandırır. Kant insanın dünyada layiq olduğu yeri tutması üçün üç mühüm suala cavab verib tapmağı vacib hesab etmişlər: 1. Mən nəyi bilirəm? 2. Mən nə etməliyəm? 3. Mən nəyə

güvənə bilərəm? Bu suallara verilən cavablar əsasında filosof birincisi, insan biliyinin mənbəyini; ikincisi, hər bir biliyin mümkün həcmini və sərfəli təbiətini; üçüncüsü, zəkanın hüdudunu müəyyən edə bilir.

Müasir baxımdan bu üç sualı təhlil etsək Kantın fəlsəfənin idrakı praqmatik və dünyagörüşü səpkilərini kifayət qədər dəqiq təyin etdiyini aydın görərik. Kant bu üç səpkini fəlsəfədə insan probleminin həlli üçün ilkin zəmin hesab etmişdir.

Hegel Kantın baxışlarını tənqidi nəzərdən keçirərək daha məzmunlu tərif vermişdir. Onun rəyinə görə, «fəlsəfə təfəkkür haqqında təfəkkürdür, ruhun öz mahiyyətinə nail olmasının ən yüksək üsuludur, gerçəkliyin inkişafının yekunudur, ümumi metoddur və dünya haqqında ümumi mühüm biliklərdir, elmlər elmi və öz dövrünün ictimai şüurudur».

«Klassik fəlsəfə»nin nümayəndələri, bir qayda olaraq, varlığın fəlsəfi dərk edilməsinə rasional və dəyər (qiymətləndirmə) yanaşmalarının vəhdəti əsasında dünyanın tam, sistemləşmiş mənzərəsini izah etməyə çalışmışlar. Onlar dünyanın və insanın harmonik mövcudluğunu qəbul etmişlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində elmi biliklərin sürəkli inkişafı, elmin cəmiyyətin və insanın həyat fəaliyyətinin bütün sferalarına nüfuz etməsi nəticəsində fəlsəfənin statusuna dair yeni mülahizələr, ideyalar yaranmışdır. Bu dövrün mədəniyyətində **sientizm və antisientizm** baxışları formalaşmışdır. Sientizm istiqamətinin tərəfdarlarının rəyinə görə, fəlsəfə ənənəvi humanitar və dəyər prinsiplərindən əl çəkməli, gerçəkliyin müxtəlif tərəflərinin araşdırılmasında təfəkkürün xüsusi elmi durumunu önə çəkməlidir. Bu baxışın əksinə olaraq antisientizm dünyagörüşünün tərəfdarları elmin inkişafının neqativ nəticələrinə əsaslanaraq fəlsəfənin məqsədini elmin tənqidindən ibarət bilmişlər.

Sientizm istiqaməti XX əsr Qərb fəlsəfəsində daha çox pozitivizmə, praqmatizmə və strukturalizmə xasdır. Fəlsəfədə sientizmin mahiyyəti bundan ibarətdir ki, əvvəl elmi model qurulur. Bu model xüsusilə riyaziləşmiş elm sahəsinə əsaslanır. Riyaziləşmiş elm digər elmlərin inkişafına yardımçı olur.

Antisientizm baxışı xüsusilə klassik ekzistensializmə xasdır. Antisientizm nümayəndələri fəlsəfənin nəzəriyyə kimi başa düşülməsindən imtina etməyi və nəzəri təfəkkürə münasibətdə onu xüsusi durum olaraq qəbul etməyi təklif edirlər. Antisientizmin nümayəndələrindən olan Jan Lakrua (1900-1986) qeyd edirdi ki, «elm həmişə ya təsdiq, ya da inkar edir, fəlsəfə isə soruşur. O, tənqiddən ibarətdir, ya da daha doğrusu, pis başa düşülan sözlə tədqiq olunanı ifadə edir. Fəlsəfə refleksiyadır və varlığı elmi əks etdirə bilməz və buna iddia da etməmişdir. Fəlsəfə həmişə subyektivdir və onun müddəaları uyuşan deyildir. Ona görə də fəlsəfədə hər hansı bir konsepsiyanı yeganə həqiqi fəlsəfi konsepsiya kimi qəbul etmək düzgün deyildir».

Fəlsəfi ədəbiyyatlarda xüsusilə də, dərsliklərdə fəlsəfənin predmeti kimi təbiətin, cəmiyyətin və insan təfəkkürünün ən ümumi qanunları, qanunauyğunluqları göstərilir. F.Engelsdən götürülmüş bu müddəa fəlsəfənin predmetinin mühüm tərəfini əks etdirir. Lakin bu tərifdə fəlsəfənin öyrəndiyi ən ümumi olmayan hadisələr və proseslər kənarda qalır. Buna görə də fəlsəfənin predmeti üçün belə bir preparat hazırlamağın əsası yoxdur. Fəlsəfənin müasir problemlərindən olan həyatın mənası problemini onun predmetindən kənarda necə təsəvvür etmək olar. Bundan əlavə, bəzi müəlliflər fəlsəfənin predimeti haqqında düşünərkən şüuru bütövlükdə idrakla, idrakı isə təfəkkürlə eyniləşdirirlər. Belə olduqda yüksək dəyərlər, yaradıcılıq, azadlıq və məsuliyyət, ictimai ideal fəaliyyət kimi məsələlər fəlsəfənin predmetindən kənarda qalır.

Fəlsəfənin predmeti insan, dünya və dünyada insanın yeridir. Bu münasibətlə T.İ.Oyzermanla razılaşmaq lazımdır ki, fəlsəfənin predmeti gündəlik və tarixi, fərdi və ümumbəşəri təcrübə, elm və praktika əsasında formalaşan problemlərin cəmidir (T.İ.Oyzerman. Problemı istoriko – filosofskoy nauki. M.1982. s. 181-182). Bu tərif fəlsəfi biliyin və onun problematikasının iki deyil, dördlük koordinatla müəyyənləşdirilməsinə əsaslanır. İkili koordinat sistemində fəlsəfi bilik ontologiya və qnoseologiyadan ibarət olur. Dördlük koordinat sistemində isə ontologiya və qnoseologiyadan əlavə aksiologiya və prokseologiya da fəlsəfi biliyə, fəlsəfi problematikaya daxil olur.

Müasir fəlsəfə, bizim dövrümüzün fəlsəfəsi təfəkkürün tükənməzliyini onun daim dərinləşməyə qadir olmasını aydınlığı ilə araşdırmaq istəyində olduğunu nümayiş etdirir. Müasir fəlsəfə plüralist xarakterlidir. O, həyati əhəmiyyətli, bəşəriyyəti həyəcanlandıran problemlərə müxtəlif şərhlər verir. Lakin bütün hallarda isə bu fəlsəfənin, müasir fəlsəfənin mərkəzi problemi insan, onun həyatının mənası, onun həyatı, azadlığı, yoxsulluğu, kasıbçılığı, ucalması və enməsi məsələlərinə müdrik bir aydınlıq gətirməkdən ibarətdir. Bütün hallarda, bu məsələlərin araşdırılmasında insana fəlsəfə kömək edir, deyərdik ki, fəlsəfəni müdrik edən də məhz bu cəhətdir. Fəlsəfə xeyli insanları tək müdrik deyil, həm də xoşbəxt edir.

## Fəlsəfə dünyagörüşü formasıdır

Dünyagörüşü özündə aşağıdakı komponentləri birləşdirir. Bunlar:

1. İnsanın obyektiv dünyaya və dünyada onun yeri haqqında baxışlar sistemidir;
2. İnsanın onu əhatə edən gerçəkliyə və özünün-özünə münasibətidir;
3. İnsanların bu baxışlarla şərtlənən həyat mövqeyi, idealı, idrakı, fəaliyyəti qiymətləndrici istiqamətidir.

Dünyagörüşü ancaq insana aiddir. Belə ki, şüur və məqsədli, zəkalı fəaliyyət ancaq insanda formalaşmışdır. Bu fəaliyyətdə insan anlayışlar və mühakimələr yaradır, onların vasitəsilə insan biliklərə sahib olur. Zəkanın vasitəsilə tarixən insanda öz «Mənini» «qeyri-Məndən», «Bizi» «qeyri-Bizdən» ayırmaq məharətini əldə edir. Bununla bərabər, insan özünü və onu əhatə edən gerçəkliyi dərk edir, özünü başqalarından, xarici aləmdən fərqləndirə bilir.

Məhz bu qəbildən olan baxışlar dünyagörüşün əsasını təşkil edir. Bu baxışların, insanın özünə və əhatə olunduğu gerçəkliyə münasibətinin məzmunu dünyagörüşün əsasını təşkil etmişdir. Bu halda insan xeyirlə şər arasında, xoşa gələnlə gəlməyən arasında fərqlər qoyur, onları qiymətləndirir. Öz məqsədinə nail olmaq üçün üstün sistemlər yaradır.

Beləliklə, dünyagörüşündə ümumiləşmiş halda aşağıdakı funksiyalar təmsil olunur: *idraki, qiymətləndirici (dəyərləndirici), praktiki.*

İdraki funksiya insanın maraq dairəsində yaranan sualları qarşıya qoyur və həmin suallara hər hansı tərzdə cavab axtarır. İdrak özlüyündə insanın dünyagörüşünü zənginləşdirir və cəmiyyətin inkişafı ilə onu dərinləşdirir, daha məzmunlu edir. İnsan özünə və dünyaya dəyərlər baxımından münasibətlər yaradan yeganə mövcudatdır. Bu keyfiyyət özünü insanın dünyagörüşündə əks etdirir.

Dünya sonsuz müxtəlifliklidir və dəyişkəndir. İnsanın cavab axtardığı suallar da daha çoxdur. Bu suallara hamı eyni dərəcədə, eyni səviyyədə cavab tapa bilmir. Ona görə də bu və ya digər problemlə bağlı olan suallar və cavablar şəxsi özünəməxsusluqla fərqlənir. Buna görə də insanların dünyagörüşləri eyni olmur, bir-birindən fərqlənir.

Dünyagörüşü həmişə unikaldır, təkrar olunan deyildir. Belə ki, dünyagörüşündə intellektual başlanğıcda emosional və psixi cəhətlər, tərəflər də mövcuddur. Bu cəhətlər və tərəflər hər bir insanda mütləq konkretdir. İnsanın fərdi xarakteristikasıdır.

İntellektual, emosional və psixi olan *iradə* ilə uzlaşaraq əqidəni yaradır. *Əqidə* insanların öz şüuruna, həyati cəhdlərinə uyğun olaraq onların fəal qəbul etdikləri baxışlardan təşkil olunur. Dünyagörüşün fəal ünsürlərindən biri də *şübhə*dir. Şübhə dünyagörüşünü *doqmatizm*dən, ehkamçılıqdan qoruyur.

Dünyagörüşü çox mürəkkəb strukturludur. Bu strukturda üçünü xüsusilə ayırmaq olar: *dünyanı duymaq, dünyanı qavramaq və dünyanı anlamaq.*

**Dünyanı duyma** – bu, ətraf aləmi hisslə qavramaqdır. Burada xarici aləmin subyektiv və tam fərdi duyğuları əks olunur. Daha aydını, hər bir hadisə ayrı-ayrı insanlarda ümumi olanla yanaşı, fərdi, təkrar olunmayan duyğular yaradır. Buna görə də dünyanı duymanın müxtəlif tipləri mövcud olur. Bunlar optimist, pessimist, faciəli və s. tiplərdir.

**Dünyanı qavrama** – bu, ətraf aləmi ideal surətlərdə təsəvvür etməkdir. Bu halda təsəvvürlər gerçəkliyə adekvat da ola bilər və ya gerçəkliyə heç uyğun gəlməyə bilər.

**Dünyanı anlama** – bu, insanın ətraf aləmin, onda baş verən hadisələrin, proseslərin mahiyyətini aşkarlamağa yönəlmiş

idraki-intellektual fəaliyyətidir. Bu həm də insanın özünün mahiyyətini, varlığını dərk etməyə yönəlmiş idrakdır. Dünyanı anlamada təbiətdə və cəmiyyətdə baş verən hadisə və proseslər arasında qarşılıqlı əlaqə və təsiri öyrənmək baş verir.

Dünyanı duymaq, elementar formalarda dünyanı qavramaq tək insana deyil, heyvanların da bəzilərinə məxsusdur. Dünyanı anlama isə ancaq insanlara xasdır.

Beləliklə, dünyagörüşü dünyaya və onda insanın təyinatı haqqında məsələlərə yönəldilmiş obrazların, təsəvvürlərin və anlayışların məcmusudur.

Dünyagörüşünün struktur komponentləri bilik, dəyərlər və əqidədən ibarətdir. Bu komponentlər insanların hərəkət tərzini, davranışında obyektivləşir, gerçəkliyə çevrilir. Bu mənada «davranış» anlayışı həyat tərzi, hər bir insan üçün tipik olan davranış qabiliyyəti, maddi və mənəvi mədəniyyət hadisə və predmetlərində nəsillərin yaddaşında obyektivləşdirilmiş mədəni ənənələri özündə ehtiva edir.

Dünyagörüşünün tarixən ilkin forması mifdir.

**Mif** – bu anlayış yunan sözündən olub, əfsanə, nağıletmə mənasını verir. Mif dünyagörüşü kimi ayrı-ayrı xalqların dünyanın yaranması, təbiətdə baş verən hadisələr, fantastik mövcudatlar, Allahların və qəhrəmanların işləri haqqında nizamlanmış, müəyyən tərzdə sistemləşdirilmiş təsəvvürlərini əks etdirir.

Miflərdə ilk başlanğıcdan biliyin, dini inamların, mənəvi mədəniyyətin, incəsənətin, sosial həyatın ünsürləri birləşmişdir. Mifdə insanların dünyaya baxışları müəyyən sistem halını almalıdır. Bu sistemləşmiş baxışların əsas formaları epos, nağıllar, əfsanələr və s.- dən ibarətdir. Miflərdə adət-ənənələr, əxlaqi baxışlar, insanların gerçəkliyə estetik münasibətləri ifadə olunur. Ona görə də bəşər tarixinin ilk mərhələlərində insanlar qarşılıqlı münasibətlərinin, onların davranış normalarının tənzimedici funksiyasını həyata keçirmişdir.

Mif ta qədimdən insanların dünya haqqında məlumatlarını ümumiləşdirən, onun haqqında dağınıq biliklərini müəyyən sistemə salan özünəməxsus dildir. Miflərdə əsas rolu adət-ənənələr, ağsaqqalın, başçının nüfuzlu sözü oynayır. İnsanların bu nüfuzlu

sözlərə, ifadələrə inamı bilavasitə emosional duyğularla müşahidə olunur. Mifoloji dünyagörüş şübhəyə ehtiyacı olmayan tam dünyagörüşdür. Mifologiya (miflərin küllüsü olaraq) indi də adi şüurda, dində, fəlsəfədə, siyasətdə, incəsənətdə mövcud olaraq hər bir insanın dünyagörüşünün tərkib hissəsini təşkil edir.

Mif özündə real olanla idealı, şüurluluğu və qeyri-şüurluluğu birləşdirərək dünya haqqında bütöv təsəvvürlər yaratmışdır. Mifdə qavrayışın bütövlüyü buna üstünlük vermək predmet və hadisənin ayrı-ayrı tərəflərinin anlaşılmasını çətinləşdirir. Buradan da insanın öz həyatının mənası və ətraf aləm üzərində refleksiyası kimi spekulyativ təfəkkür metodu yaranmışdır.

Mifin digər bir xüsusiyyəti onun bütövlüyü və bölünməzliyidir. Bu zəmində mifin fərdlərə aşıladığı dəyər normaları praktiki tövsiyələrlə həyata keçirilir. Mifdən nəsihət alan göstərişlərin təyinatlarının sübuta ehtiyacı olmur. Bunlar bir inam kimi qəbul olunur. Bu sonuncu hal mifə irrasional xarakter vermişdir. Bu cəhəti xüsusi qeyd etmək lazımdır ki, mifdə olan irrasionallıq insanın həyat fəaliyyəti üçün az əhəmiyyətli olmamışdır. Belə ki, insanın fəaliyyətində real olan ilə ideali, rasional ilə rasional olmayanı bir-birindən ayırmaq çox çətindir.

Tarixi inkişaf prosesində mifin taleyi dəyişmişdir. Antik dövrdə mifə çox hallarda həqiqətin bədii ifadəsi kimi baxmışlar. Yeni dövrdə mifə çox hallarda klassik fəlsəfə baxımından yanaşaraq onu yarımaldatma kimi qiymətləndirmişlər. «Müasir dövrümüz üçün bu fikirlə razılaşmaq olur ki, mif bütövlükdə dünyanın dərkedilməsinin modeli deyildir» (Quliqa A.V. Mif i sovremennostğ i nostr. Literatura 1984 № 2. s. 169). Bir bilik forması kimi mif bu günümüzdə mütləq mənada arxaikdir, lakin fəaliyyətə cəlb etmək üçün öz imkanlarını yox etməmişdir.

Dünyagörüşünün mifdən sonra qədim formalarından biri dindir. İnsanın mənəvi həyatında din qədər mühüm rol oynayan ikinci amil tapmaq çox çətindir. Dini şüur bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi, həm də ideoloji dünyagörüş forması kimi təşəkkül tapmış və müəyyən sosial funksiyalar yerinə yetirmişdir. Din insanların ətrafdakı gerçəkliyi və özlərini dərk etməsinin tarixən şərtlənmiş forması kimi yaranmış və mövcud olmuşdur.

Din insan həyatını bütövlükdə əhatə etməyə cəhd edir: o məişət qaydalarını müəyyənləşdirmiş, onun cəmiyyətin siyasi rəhbərliyinə də iddiası olmuş, dünyanın yaranması haqqında öz versiyasını irəli sürmüş, əxlaqi və estetik dəyərləri əsaslandırmışdır. Tarixi inkişaf ictimai həyatda dinin müdaxiləsini nisbətən zəiflətsə də, müasir dünyada baş verən hadisələrin gedişi onun bu hadisələrə təsir etdiyini göstərir. Elə ölkələr və regionlar var ki, din insanların həyat fəaliyyətinə və davranışına ciddi təsir etməkdə davam edir.

Maddi tələbatın ödənilməsi haqqındakı daimi qayğı ilə yanaşı, insan öz həyatının mənəvi dərkinə də can atır. Lakin həyatın ağır yükü, gündəlik vacib işlərin qayğısı insanın qüvvəsini udur və onda dünyaya qarşı da, özünə qarşı da bir narazılıq duyğusu yaradır. Din bu narazılığın ödənilməsində də köməyə gəlir. «Həqiqət işığı», «yolgöstərən ulduz» da dində axtarılır. Din insanı müstəqil axtarışlardan və seçim məsuliyyətindən azad etməklə ona bir yüngüllük gətirir, insanda bir sakitlik və ümid yaradır.

Dində fantastik təsəvvürlərin olduğunu heç kəs inkar edə bilməz. Lakin bu dini təsəvvürlərin arxasında nələrin gizləndiyini, onların mənasını müəyyənləşdirmək xeyli mürəkkəbdir. Dini inam dindarın dünyaya baxdığı özünəməxsus eynəkdir. İnsanlar çox uzun müddət bu prizmadan həyata baxmış və o qədər çoxlu şeylər görmüşlər ki, onları sadəcə olaraq kənara atmaq mümkün deyildir. Yekun olaraq qeyd edək ki, dini inkar etmək heç də dünyaya düzgün baxışlar əldə etmək və keçmiş mədəniyyətin tarixindən yüksəkdə durmaq demək deyildir.

Mif və dini dünyagörüşləri tədricən insanların həyata baxışlarını genişləndirir və dərinləşdirirdi. Eramızdan əvvəl VII-VI əsrlərdən başlayaraq insanların dünyagörüşünün əhəmiyyətli dərəcədə mürəkkəbləşməsi prosesi gedir. Bu prosesin əsas cəhəti əldə edilmiş biliklər və təcrübə əsasında abstrakt-nəzəri təfəkkürün dünyagörüşündə özünə daha artıq yer tapması olmuşdur. Cəmiyyətdə sosial-iqtisadi münasibətlərin inkişafı, əmək bölgüsünün genişlənməsi, xüsusilə də asudə vaxtın artması müəyyən qrup insanlara intellektual fəaliyyətlə peşəkar məşğul olmağa imkan yaratdı.

Beləliklə, təxminən 2500 il bundan əvvəl Asiya və Avropanın ayrı-ayrı ölkələrində dünyagörüşünün daha mükəmməl forması olan fəlsəfi dünyagörüş formalaşdı. Bu dünyagörüş mifdən və dindən fərqli olaraq inam və hiss əsasında deyil, əql və bilik zəminində dünyanın təhlilini verməyə başladı.

Alman filosofu Yaspersin dili ilə desək, dünya tarixinin oxunu eramızdan əvvəl 500 ildən hesablamaq lazımdır. Dünya tarixi e.ə.800 və 200 illər ərzində mənəvi prosesə daxil olmuşdur. Bu vaxt tarixdə kəskin dönüş baş verdi. Hal-hazıra qədər özünü saxlayan insan tipi meydana gəldi. İlk filosoflar meydana gəldi. Ayrıca fərd keyfiyyətində insan özündə istinadı axtarmağa hünərləndi. Çin mütəfəkkirləri, hind asketləri, yunan filosofları, İsrail peyğəmbərləri hamısı öz mahiyyətlərinə görə bir-birilərinə çox yaxındırlar. İndi insan özünü daxilən dünyaya qarşı qoya bilər. O dünya və özü üzərində yüksəkdə durmaq imkanı verən mənbələri özündə kəşf etdi.

Fəlsəfi dünyagörüşün yaranmasının mühüm səbəblərindən biri o oldu ki, mifologiya elmi biliklərin ruşeymləri ilə ziddiyyətə girdi. Təbiətdə və ümumiyyətlə, gerçəklikdə baş verən inkişafı izah etmək üçün yeni mifə tələbat yaranır. Ancaq təbii qanunauyğunluqların, təbii səbəbiyyət əlaqələrinin izahında artıq miflər imkansız olur. Beləliklə, tarixin nisbətən qısa zamanında insanların dünyagörüşündə əsaslı dəyişikliklər baş verir. Bu halda bu prosesdə bilik, əql, analitik təfəkkür böyük əhəmiyyət kəsb edir. Bu dediklərimiz çox güclü halda inama və hisslərə əsaslanan, emosiyalarda ifadə olunan informasiyaları sıxışdırır.

Beləliklə, mifdə, sadəcə, inanılan kahinlərin, din xadimlərinin yerinə sual verən və cavab axtaran müəllim, filosof gəlir. Onun həyat devizi belədir: «hər şeyə inanma, özün düşün».

Filosof təfəkkürü insanı əvvəldən düşünülmüş ehkamlardan, sanki «zindandan» azad etdi və tənqidi təfəkkür məharətini inkişaf etdirdi. Buradaca deməliyik ki, bu tənqidi təfəkkür nə miflərdə, nə də dində xarakterik xüsusiyyət olmamışdır. Beləliklə, filosof sualları formulə etməyi və onlara cavab tapmaq, rə həmişə sağlam zəkaya və özünün intellektinə arxalanmağı öyrətdi. Bu gün də filosoflar bütün dünyada bununla xüsusi məşğuldurlar.

Dünyagörüşü tarixi xarakter daşıyır. Belə ki, dünyagörüşü insan və dünyanın qarşılıqlı əlaqəsini, insanın özünün və onun münasibətə girdiyi dünyanın konkret-tarixi inkişaf səviyyəsini çox tipik əks etdirir. Bu baxımdan fəlsəfi dünyagörüşün aşağıdakı tarixi tiplərini müəyyənləşdirmək mümkündür: *kosmosentrizm; teosentrizm; antroposentrizm.*

**Kosmosentrizm** qədim sivilizasiyalara məxsus fəlsəfi dünyagörüşüdür. Bu tip dünyagörüşü yunan fəlsəfəsinin Sokrataqədərki dövründə özünü daha aydın ifadə etmişdir. Bu dövrdə «Mən kiməm», «Kim olmalıyam», «Necə olmalıyam» suallarına cavabı insanın özündə deyil, ideal hormoniyanı və gözəlliyi özündə birləşdirən kosmosda axtarmışlar. Kosmos kamillik nümunəsi olaraq insanda öz hərəkətlərinin təbiətə uyğun olması haqqında inam yaradır.

**Teosentrizm** orta əsr mədəniyyəti dünyagörüşündə dini baxışlar üstünlük təşkil edir və «reallıq» adlandırılan anlayışın yenidən araşdırılıb düşünülməsi baş verir. Antik dövrdə reallıq predmetli hiss olunan kosmosdur. Və o hissi-nəzəri təfəkkür kateqoriyaları ilə təsvir olunur. Orta əsr teosentrizmdə reallıq hər cür əşyavilikdən və hiss olunmaqdan kənardadır. Orta əsr mədəniyyətində Allah əsas və ilkin reallıq hesab edilir. Allah ilə gündəlik qovuşma olmasa həyat mümkün deyildir. Teosentrizmin əsas devizi belədir: «Allahı öz ruhunla, ruhunu isə Allah vasitəsilə dərk et».

**Antroposentrizm** intibah dövrü mədəniyyəti üçün xarakterikdir. Bu dünyagörüşü tipi kosmosentrizm ilə teosentrizmin yaradıcı sintezidir. Bu sintez nədən ibarətdir? İntibah (renesans) maddi, hiss olunan kosmosu ucaltmağa, onun estetik gözəlliklərindən həzz almağa səy göstərir. Digər tərəfdən, teosentrizmin mütləq şəxsiyyət ideyası intibaha (renesansa) yad deyildir, bir şərtlə ki, bu şəxsiyyətin mütləqliyi dünyadan kənarda nəzərdə tutulan deyil, konkret insana aiddir. Antroposentrizmin ən böyük nailiyyəti insan şəxsiyyətini, onun dəyərliliyini və ləyaqətini ifadə edən humanizm ideyalarıdır. Yəni yeni dövrdən başlayaraq mədəniyyətdə elmin mərkəzi amilə çevrilməsi prosesi gedir. Klassik elmin – XVII-XVIII əsrlər elminin ideallarının uni-